Yarımçıq yaşanmış ömür

Hamı kimi o da bu dünyaya yaşamaq üçün gəlmişdi. Kərimovlar ailəsində doğulan bu körpə öz gəlişi ilə ailəyə bir sevinc, xoşbəxtlik gətirmişdi.

Atası Abdulla müəllimin, anası Mələk xanımın valideyn kimi fərəhləri yerə-göyə sığmırdı. Bu sevincdən Əminə nənəyə və evdəki bacı-qardaşa da pay düşürdü. Onlar da sevinir, özlərini xoşbəxt hesab edirdilər. Uşağa Adil adını verdilər. Adil ərəb sözü olub mənası ədalətli, insaflı, duz iş görən deməkdir.

Ailə üzvləri ailənin bu sonbeşiyini xüsusi qayğı və nəvazişlə böyüdürdülər. Onun hər bir istək və arzusunu yerinə yetirməyə çalışırdılar.

Ziyalı ailəsində doğulan bu körpə hələ məktəb yaşı çatmamış yazmağı və oxumağı öyrənmişdi. 2008-ci ilin sentyabrında o, Çuxur Qəbələ kənd tam orta məktəbinin I sinfinə daxil oldu. Elə ilk günlərdən müəllim və şagirdlərin nəzərini cəlb etdi. İstər ibtidai sinifdə, istərsə də yuxarı siniflərdə oxuyanda hamı onu savadlı, qayğıkeş, vətənpərvər bir şagird kimi tanıyırdı. O, millətini, dövlət rəmzlərini, torpağını bütün varlığı ilə sevirdi, ürəyi vətən sevgisi ilə çırpınırdı. VII sinfin ən fəal şagirdi idi. Dərsdə geri qalan şagirdlərə kömək edir, onlarla yaxşı rəftar edirdi. Təmizkar, özünə qarşı tələbkar idi. Öz çalışqanlığı, yüksək davranışı ilə yalnız məktəb kollektivinin deyil. bütövlükdə onu tanıyanların hörmətini qazanmışdı.

Həyat sonsuz, ölüm isə anidir. Noyabrın 10-u sabahkı dərslərinə hazırlaşıb, uşaqlarla meydançada oynayan vaxt o, amansız ölümlə üz-üzə gəldi və həyatla vidalaşdı. «Ölüm dırnaqlarını ilişdirdikdə heç bir dua, alqış fayda verməz»deyib müdriklər. Bu qara xəbər hər yerə yayıldı. Bütün kənd, o ailəni tanıyanlar, məktəbimizin müəllim və şagird kollektivi göz yaşı tökür, bu ailənin kədərinə şərik olmaq üçün axın-axın oraya gəlirdi. Amma... bu faciəli hadisə qarşısında hamı asiz idi, deməyə söz tapmırdı. Gözlərdən yaş sel kimi axırdı.

Dahilər dediyi kimi, elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən, həmişə ürəklərdə yaşayasan. Həyatın məqsədi yalnız bundan ibarətdir.

Elə ölənlər var ki, həmişə şağ, diridir. Adil də belələrindəndir. Onun yoxluğu cismən hiss olunsa da, mənən o bizimlədir. Sağlığında tanıyanların sevimlisi olmaq, öləndən sonra yaxşı xatırlanmaq dünyada ən böyük səadətdir.

Nənəsinin, valideynlərinin, ali məktəb tələbəsi olan bacı-qardaşının ən böyük təsəllisi də məhz budur.

Allah rəhmət eləsin! Allah ailəsinə səbr versin!

Çuxur Qəbələ kənd tam orta məktəbin kollektivi adından
Arifə CABBAROVA.

Müdrik deyimlər

eAdamlardan arzularına görə yox, imkanlarına görə tələb etmək lazımdır.

Q. Lıxtenberq.

eƏn yaxşı miras ədəb, ən yaxşı yoldaş əxlaqdır.

Ərəb atalar sözü.

eİnsan ruhunu ucaldan bir şey varsa, onun birincisi zəhmətdir.

N. Nərimanov.

eBədənin səhhəti az yeməkdə, ruhun səhhəti az günah etməkdədir.

Zünnün Misri.

eQədirbilməzlik ruzi verən əli yandrmaq kimi bir şeydir.

M. T. Sidqi.

eRahatlıq zəhmətdədir, zəhmət isə dincəlməkdə.

Keykavus.

eUşaqlarınızı öz zəmanənizə görə yox, gələcək zamana görə tərbiyə edin,

Həzrəti Əli.

eDəmir bir yerdə qalanda paslanar, su bir yerdə qalanda iylənər, insan ağlı isə tətbiq edilmədikdə kütləşir.

Leonardo Da Vinçi.

Elan

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 №-li qərarla Tüntül kənd sakini Rəşidov Süleyman Aləhməd oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0098 saylı (kodu 40616018) Torpağın mülkiyyətə verilməsinə dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Oxucuların nəzərinə!

«Qəbələ» qəzetinə

2015-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Qəzet ayda dörd dəfə çıxır.

Yarımillik abunə qiyməti 15 manatdır.

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Qəbələ Rayon Polis Şöbəsində vakant olan orta rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

Müsabiqə aşağıdakı yerlər üzrə test imtahanlarından və müsahibədən ibarətdir:

1. Cinayət-axtarış üzrə əməliyyat müvəkkili vəzifəsinə (hüquqşünaslar üçün).

2. Polis sahə inspektoru vəzifəsinə (hüquqşünaslar üçün).

3. Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifəsinə (müəllimlər üçün).

Müsabiqədə dövlət ali təhsil müəssisələrində hüquqşünas və müəllim (3 il pedaqoji stajı olan) ixtisası almış, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), yaşı 30-dan yuxarı olmayan, boyu 165 sm-dən (qadınlar üçün 160 sm) yuxarı olan və "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında əsasnamədə" müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları olan, kişilər iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin elan edilmiş vakant vəzifələrə təyinatından sonra onların Xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcək.

Daxili işlər orqanlarında xidmətə qəbul olmaq istəyən şəxslər yaşadıqları ərazi polis orqanına müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

—Şəxsiyyət vəsiqəsi;

—Ali təhsil haqqında diplom;

—Hərbi biletlər;

—əmək kitabçası (olanlar üçün);

təqdim olunmuş sənədlər əsasında namizədin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak etmək üçün sənədlər 2014-cü il noyabr ayının 24-dən dekabr ayının 24-dək hər gün (şənbə və bazar günlərindən başqa) saat 10-dan 17-dək Qəbələ rayon polis şöbəsində qəbul olunur.

Əlaqə tel: (024) 205 18 28, 205 18 22

İnternet ünvanı: DİN-www.mia.gov.az.

Elanlar

Rayon Aqrar İslahat Komissiyası tərəfindən 7 noyabr 1997-ci il tarixdə 19 saylı qərarla Böyük Əmili kənd sakini, mərhum Mamıyeva Limon Rəhman qızının adına verilmiş JN-114F saylı (kodu 40604028) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə (kənd) sakini Bağırov Mirzəağa Məhəmməd oğlunun və ailə üzvlərinin adına verilmiş JN-1320 №-li (kodu 40600048) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün** etibarsız sayılır.

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Ərazi İdarəsi tərəfindən 15 dekabr 2011-ci il tarixdə Nic qəsəbə sakini Məmmədov Tahir Mərdan oğlunun adına verilmiş reyestr nömrəsi 406013009795-10301, inventar nömrəsi 406-66/673 olan **fərdi yaşayış evinin texniki pasportu itdiyi üçün** etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

T. Yaqubov adına Bum qəsəbə tam orta məktəbin pedaqoji kollektivi müəllim yoldaşları **Ruhəngiz Musayevaya,** anası **SVET XANIMIN** vəfatı münasibəti ilə başsağlığı verir və kədərinə şərik olurlar.

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Oqtay Məmmədova,** yaxın qohumu **FÜZULİ SALMANOVUN** vaxtsız vəfatı münasibətilə dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.